*1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür*

# Ana dilimiz xalqımızın ən böyük sərvətidir

Ölkəmizdə Ana dilinin inkişafına və onun qorunub saxlanılmasına dövlətimizin həmişə xüsusi diqqəti, qayğısı olub . Hər bir dilin özəlliyi və özünə məxsus gözəlliyi var. Bunu kimsə inkar edə bilməz, amma bir vətəndaş olaraq bizim üçün Azərbaycan dilinin analoqu yoxdur. Hələ o vaxtlar sovet quruluşunun müəyyən təzyiqlərinə baxmayaraq, ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin ölkəmizdə dövlət dili kimi qəbul edilməsində böyük xidməti olmuşdur. Dilin inkişafı üçün ulu öldərin müntəzəm olaraq imzaladığı fərman və sərəncamlarında, eləcə də tövsiyələrində, çıxışlarında vaxtaşırı ortaya çıxan ciddi problemlərin həlli yolları dəqiq göstərilib. Dövlət müstəqilliyi qazanıldıqdan sonra ölkədə müxtəlif tədbirlər həyata keçirildi, fərmanlar verildi, sərəncamlar imzalandı.

Azərbaycan dilinin bu günkü inkişaf səviyyəsi təsdiqləyir ki, xalqımız dünyanın ən qədim xalqlarındandır. Bu qədimliyi Azərbaycan xalqının dünya sivilzasiyasına bəxş etdiyi Qobustan və Gəmiqaya təsvirləri, həmçinin etnoqrafik abidələri bir daha təsdiqləyir. Xalqımız bu qiymətli əsərləri yaradarkən müxtəlif yazı növlərindən və əlifbalardan istifadə etmişdir. Təbii ki, dilin təşəkkülü müxtəlif prolseslərdən keçir. Ölkəmizdə yüz illər boyu ərəb dili din, elm və təhsil dili rolu oynamışdır. Lakin əsrlər boyu müxtəlif xalqların mədəni əlaqələrinə xildmət etmiş, ərəb qrafikası dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilmirdi, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvur yaratmırdı. Bu çatışmazlıqlar M. F. Axundzadə başda olmaqla dövrün mütərəqqi maarifçi ziyallarında əlifba islahatına keçmək ideyaları yaratmışdır. Lakin o vaxt bu ideyanı həyata keçirmək mümkün olmamışdı.

Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsində qeyd etdiyimiz kimi, ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri var. Unudulmaz insanın 18 iyun 2001-ci il tarixli «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında»kı fərmanında deyilir: «Azərbaycan dili bu gün dərin fikirlərin ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı xalqdan bir neçə minillik tarixi yaşaması lazım gəlir».

Ana dilimizi Azərbaycan xalqının ən böyük sərvəti hesab edən ulu öndər çıxışlarında tez-tez vurğulayırdı ki, milli dövlət quruculuğu prosesinin çox mühüm şərtlərindən biri milli ədəbi dil zəminində xüsusi rəsmi dil üslubunun formalaşmasıdır. Bu səbəbdən də Azərbaycan dilini dövlətçiliyin əsas rəmzlərindən sayaraq onun saflaşması naminə vaxtaşırı olaraq xüsusi tədbirlər həyata keçirildi. «Azərbaycan əlifbsı və Azərbaycan dili gününün təsis edilməsi haqqında» 9 avqust 2001-ci il tarixli sərəncam da məhz bu niyyətlə imzalanmışdı. Beləliklə, 1 avqust ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilməkdədir.

Ulu öndərə məxsus fikirdir: «Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir». Bir faktı da xatırlamaq yerinə düşər ki, Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Dövlət mükafatı verilən ilk kitablardan biri məhz 1974-cü ildə çap edilmiş «Müasir Azərbaycan dili» dərsliyidir.

Ulu öndərin ən böyük xidmətlərindən biri odur ki, Azərbaycanın 21 aprel 1978-ci il tarixli Konstitusiya layihəsini hazırlayan komissiyanın sədri olarkən ana dilinə olan sonsuz məhəbbəti nəticəsində Konstitusiyanın 73-cü maddəsinə dövlət dilinin Azərbaycan dili olması barədə müddəa daxil etmişdir. Heydər Əliyevin dilimizə olan dəyişməz mövqeyi müstəqil dövlətimizin 12 noyabr 1995-ci il tarixdə referendum yolu ilə qəbul edilən Konstitusiyasının 21-ci maddəsində də öz əksini bir daha tapdı.

Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev də doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. İnam və qətiyyətlə deyə bilərik ki, bu gün dilimizin inkişafının əsas qarantı da məhz dövlət başçımızın özüdür. Azərbaycan ədəbiyyatının, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi məhz İlham Əliyevin təşəbbüsü ilə baş tutdu. Dövlət başçısının 2004-cü il yanvarın 12-də imzaladığı «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında»kı sərəncamı həm də əlifba ilə bağlı problemləri tamamilə həll etdi.

Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanılmasında ana dili və ədəbiyyyatımızın başlıca amillərdən olduğunu diqqətə çəkərək demişdir: «Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir». Müxtəlif çıxışlarında, insanlarla olan söhbətlərində,- bölgələrdə keçirdiyi görüşlərdə Prezident dövlət atributlarına, xüsusilə də Azərbaycan dilinə. əlifbasına, mədəniyyətinə, incəsənətinə, milli adət-ənənələrinə ehtiramla yanaşmağın fəzilətlərindən danışmışdır.

Azərbaycan dili zəngindir. Ona görə də istər yazıda, istərsə də danışıqda mütləq məntiqli olmaq, sözü düzgün ifadə etmək lazımdır. Dilin əsl yaradıcısı da millətin özüdür.

**Aslan CƏLİLOV.**

## Təbrik edirik



*Vəndam qəsəbə 3 saylı tam orta məktəbin məzunu Əfəndiyeva Xəyalə Rəvan qızı ali məktəblərə testlə qəbul imtahanlarında ən yüksək nəticə əldə edərək 700 bal toplamışdır.*



## ELANLAR

Azərbaycan Respublikası ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı ərazi idarəsi tərəfindən Tağıyeva Günəş Ziyadxan qızının adına verilmiş reyestr № 406013010040 qeydiyyat № 1912000339 qeydiyyat tarixli 18.01.2012 inventar № 406-46\2230 **çıxarış və plan ölçü sənədi itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon Aqrar İslahat Komissiyasının 28.10.1998-ci il tarixli 19 saylı qərarı ilə verilmiş, Qəbələ rayonu Vəndam qəsəbə sakini Əzizova Nailə Bəyalı qızına məxsus kod 40600048, JN-2175 A və JN 2175 B saylı **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 15 dekabr 1997-ci il tarixli 27 nömrəli qərarla Soltannuxa kənd sakini Məmmədiyarov Şakir Məmmədağa oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0049 nömrəli (kodu 40602038) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün** etibarsız sayılır.

---

Azərbaycan Respublika ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı ərazi idarəsi tərəfindən Çarxana kənd sakini Hacıyeva Mətanət Azad qızına 26.08. 2014-cü il tarixdə verilmiş R.N 4060130587883, inventar nömrə 406-21/145 olan **çıxarış itdiyi üçün** etibarsız sayılır.

---

Şəki RQİTBŞ tərəfindən 19 fevral 2013-cü il tarixdə Uludaş kənd sakini Nəsrullayeva Rəhilə Əzəmməd qızına məxsus VAZ-2106 markalı, seriya nömrəsi AB 859715, dövlət qeydiyyat nişanı 36 BE 783 olan minik avtomaşınının **qeydiyyat şəhadətnaməsi** və Şəki şəhər 8 saylı RQİŞ tərəfindən Uludaş kənd sakini Nəsrullayev Ağali Osman oğluna 22 fevral 2011-ci il tarixdə verilmiş seriya nömrəsi AB 577434 olan B dərəcəlii **sürücülük vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.

---

Qəbələ rayon Aqrar İslahat komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarı ilə Vəndam qəsəbə (kənd) sakini Muradhasilov Aynəzər İsmayıl oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 0094 nömrəli (kodu 40600048)**Torpağa mülkiyyət hüqüqüna dair Dövlət aktı itdiyi üçün** etibarsız sayılır.



*2 avqust Azərbaycan Kinosu Günüdür*

# 117 yaşlı Azərbaycan kinosu

**(Əvvəli 7-ci səhifədə).**

Azərbaycan kinosunun inkişaf mərhələsi ötən əsrin 50-ci illərinə təsadüf edir. Həmin illərdə nəinki sənədli, həm də bədii filmlərin istehsal həcmi xeyli dərəcədə artmışdır. Sənətkarlıq nöqteyi-nəzərdən bir-birindən xeyli fərqlənən «Görüş», «Qara daşlar», «Bəxtiyar», «Qızmar Günəş altında», «Onun böyük ürəyi», «O olmasın, bu olsun», «Uzaq sahillərdə», «Ögey ana» və o illərdə çəkilən filmlər bu gün də sevilir.

Ötən əsrin 60-70-ci illərində ekranlaşdırılmış «Telefonçu qız», «Yenilməz batalyon», «Sən niyə susursan», «Bizim Cəbiş müəllim», «Yeddi oğul istərəm», «Axırıncı aşırım», «Ad günü». «Dədə Qorqud», «Nəsimi» və başqa Azərbaycan kinoları dünya kinoteatrlarının salonlarında uğurla nümayiş etdirilmişdir.

Azərbaycan kinosu tarixi və eyni zamanda şərəfli bir yol keçib. Yazıçı İbrahim bəy Musabəyovun eyniadlı pyesi əsasında 1905-ci ildə ekranlaşdırılmış, H. Ərəblinskinin, Məmməd Əlilinin, Cabbar Qayağdıoğlunun, Qurban Primovun çəkildiyi ikiseriyalı, 8 hissəli, səssiz «Neft və milyonlar səltənətində» filmində indiyədək 340-dək tam və qısa metrajlı, kino-sujet istehsal edilib tamaşaçıların ixtiyarına verilib. Son illər bu sahədə əldə edilən uğurlar isə təbii ki, dövlətimizin və ilk növbədə ölkə başçısı cənab İlham Əliyevin mədəniyyət və incəsənətimizə göstərdiyi qayğının nəticəsidir. Bir sözlə, Azərbaycan kinosu müasir olduğu qədər klassik, klassikliyi qədər də müasirdir.

**«Qəbələ».**

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon Tarix- Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov və muzeyin kollektivi iş yoldaşları **Əntiqə xanım Şamilovaya,**

**ANASININ**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Emin Baratoğlu ailəsi ilə birlikdə Bum qəsəbə tam orta məktəbin müəllimi **Hürü İbrahimovaya,** əzizi

**BƏLQİYYƏ İBRAHİMOVUN**

vəfatı münasibəti ilə dərin hüznlə başsağlığı verir.


*Redaktor*
*O. Ə. Məmmədov.*

*TƏSİSÇİLƏR:*
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**

*Məsul növbətçi:*
*N. R. Atakişiyev.*

**ÜNVANIMIZ:**
**AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.**
**Redaktor: (024)20 5-19-14.**
**Ümumi: (024)20 5-15-56.**
**e-mail: gabalanews@mail.ru**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.**
**Lisenziya AV № 022611**

**«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149**
**VÖEN: 4400103601**

**Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.**
**Tiraj 2300.**

**Oxucu məktubları geri qaytarılmır.**